*Qumru ŞƏHRİYARİ*

# CƏBRAYILDA TOY ADƏTLƏRİ VƏ YA ƏSİR DÜŞMÜŞ ƏN'ƏNƏ

Qarabağ dağ silsiləsinin ətəyində qərar tutan qocaman çinarlar əhatəsində əsrlərlə öz təmkinli və müdrik həyatını yaşamış Cəbrayıl indi yağı tapdağı altındadır. Onun əvəzsiz və təkrarsız gözəlliyi də, tükənməz sərvətləri də, əfsanəvi Xudafərin körpüsü də, adət-ən'ənələrimiz də əsir düşüb. Əsirlikdəki mə'nəvi dəyərlərimizi xatırlamaq, anmaq bizim borcumuzdur.

Cəbrayılın xoşbəxt vaxtlarında toylu-büsatlı günləri tez-tez olardı. Gənclər bir-birini görüb sevər, əhd-peyman bağlayardı. Bundan sonra bütün işlər valideynlərin üzərinə düşərdi. Oğlanın valideynləri Allahın əmri, Peyğəmbərin izni ilə qızın qapısına elçi gedərdilər. Əvvəlcə oğlan evindən bir neçə qadın öz fikirlərini bildirmək üçün qız evinə gələr və bu barədə söz açılardı. Sonra kişilər (burada qadınlar da olardı) razılıq almaq üçün qızın evinə gələrdilər. Əgər qız atası bu oğlana qızını verərsə, "çayınızı şirin edin" deyərdi. Bu zaman "hə" cavabı alan oğlan adamları qızın barmağına tək qaşlı üzük taxardılar. Bu üzük qızın adaxlı (sözlü) olduğunu göstərərdi.

Bundan sonra nişan hazırlıqları başlanardı. Cəbrayıl adətinə görə, nişanın bütün xərcini oğlan evi çəkir. Oğlan evinin ağsaqqalı nişan üzüyünü qızın və oğlanın barmağına taxır. Oğlanın anası isə qızın başına qırmızı kəlağayı örtür. Bununla yanaşı, oğlanın adamları qızın adına xonça bəzəyib gətirirlər. Bu xonçalarda qızın adına alınmış geyim əşyaları ilə yanaşı, mövsüm meyvələri və şirniyyat da olurdu.

Toya qədər bütün bayramlarda qıza bayramlıq aparılırdı. Qurban bayramında isə "qurbanlıq" adlandırılan qoçun boynuna qırmızı lent, lentin ucuna isə güllü yaylıqda şirniyyat bağlanardı. Bu bağlama qurbanlıq qoçu kəsən adama çatardı.

Bundan sonra toya tədarük görülərdi. Qız evində isə qıza cehiz işləri başlanardı. Hanalar qurular, xalçalar toxunar, yorğan-döşək salınardı. Qızın cehizində ona bir də sandıq verilərdi. Bu, bolluq, bərəkət rəmzi idi. Toy ərəfəsində oğlan evindən qız evinə toy xərci gətirilərdi. Bundan sonra qızın cehizi oğlan evinə göndərilərdi. Oğlanın evində gəlin otağı bəzənərdi. Gəlin otağını bəzəyən qız adamına oğlanın anası "xələt" verərdi. Sonra "paltar biçdi" (Burada yalnız qadınlar olurdu. Eyni zamanda, bu, "qız toyu" sayılırdı) olurdu. "Paltar biçdi" deyilən mərasimdə oğlan adamları qız evinə xonça gətirərdilər (Bu xonçalarda sa-

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bun və ayaqqabı olmazdı. Xalqın inancına görə, bunlar yeni qurulmuş ailəyə sıxıntı və dava-dalaş gətirər. Hətta yuxuda ayaqqabı və sabun gördüyümüz zaman bu, xeyirə yozulmaz). Xonçalarla birlikdə güzgünün, şamın, nabatın və kəllə qəndin (yeni qurulmuş ailənin ilk övladı dünyaya gələndə nabatı və kəllə qəndi doğrayıb 7 qapıya şirinlik paylayardılar) olması (qeyd edək ki, güzgü, şam, nabat, kəllə qənd kimi elementlərin simvolik mə'na daşıması qədim düşüncə tərzi ilə bağlıdır və təkcə toy adətləri ilə məhdudlaşmır. Folklor mətnlərinin, etnoqrafik bilgilərin öyrənilməsi göstərir ki, bu ünsürlərin əski mifoloji-mərasimi təcrübədə xüsusi yeri olmuşdur. İndi onlara verilən izahlar yarı estetik-əxlaqi, yarı mərasim-mifoloji bilgilər olub, həmin qədim təsəvvürlərin tarixi düşüncə müstəvisində transformasiya olunduğunu göstərir. Bizim mövzumuz toy adətinin təsviri ilə bağlı olduğu üçün həmin elementlərin əski magik semantikası üzərində geniş dayanmırıq) vacib idi. Qız evində xonça gətirən hər kəsə şirinlik verilərdi. Xonçada qıza gətirilən əşyalar toya gələnlərə nümayiş etdirilərdi. Elə həmin gün xına yaxar (xına oğlan evindən hazır gəlirdi), gəlini hamama aparardılar. Bu, oğlan evində "bəy hamamı" deyilən mərasimlə davam etdirilərdi.

Səhəri gün toy olan həyətdə (oğlanın evində) mağar qurulardı. Mağarın içərisi xalılarla bəzədilərdi. Günortaya kimi qadın məclisi qurulardı. Toya gələn hər kəsə hədiyyə paylanardı. Bu hədiyyələr toydan əvvəl də'vət olunan qonaqların sayından bir az da çox hazırlanan şirniyyatdan ibarət idi.

Günortadan sonra gəlini gətirmək üçün yola çıxılardı. Gəlin maşını təzə-tər güllərlə və qırmızı lentlə bəzədilərdi. Gəlin maşınının arxasınca gedən bütün maşınlara qırmızı lent bağlayardılar. Yol boyu körpə uşaqlar gəlin maşınının önünü kəsib şirinlik alardılar. Qız evinə çatan bəy və adamları yenidən çalıb-oynamağa başlayardılar. Adətə görə bəy özü ilə qız evinə çalğıçı – qara zurna, balaban və nağara gətirərdi. Oğlanın adamları burada qızın evindən qiymətli bir şey "oğurlayıb" bəyə iki qat baha qiymətə satardılar (Yeri gəlmişkən, qeyd edək ki, toy prosesinə aid olan bu "oğurluq" aktı sırf rituallaşdırılmış hərəkət vahidi olub, qətiyyən antiəxlaqi xarakter daşımır. Biz nəinki toy ritualında, ümumiyyətlə, ən'ənəvi mədəniyyətimizin bir sıra mətnlərində rituallaşdırılmış oğurluq aktı ilə üzləşirik. Etnoqrafik ədəbiyyatlardan da bəlli olduğu kimi, mərasimlərdə, o cümlədən toy mərasimlərində adi həyatda antiəxlaqi davranış aktı sayılan hadisələr zəruri, mərasim üçün tələb olunan, yerinə yetirilməsi vacib sayılan hərəkətlərdəndir. Oğurluq da bunlardan biri olmaqla, mərasim kontekstində özünün çox zəruri və mühüm semantikasına malikdir. Təəssüf edirik ki, bu mərasimi davranış aktının semantikasına indiyədək lazım olan diqqət verilməyib).

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Burada bəylə gəlin üçün bəyin anası üzərlik yandırar və aşağıdakı nəğməni oxuyardı:

Üzərriksən, havasan,
Min bir dərdə davasan.
Balalarıma göz vıranın
Gözdərini ovasan.

Sonra gəlin sol əlinin arxasını başının üstünə qoyar, bəyin atası isə "süd pulu" adlanan müəyyən məbləğdə pulu gəlinin ovcuna qoyar və xeyir-duasını verərdi. Gəlinin anası bu pulu götürər (körpə müəyyən mərhələyədək "ana südü" ilə qidalandığı üçün bu pul "süd pulu" adlanır və məhz anaya çatır. Onu da əlavə edək ki, burada süd pulu ilə bağlı məbləğ simvolik xarakter daşıyır. Belə ki, verilən pul reallıqda uşağın içəcəyi südün qiyməti deyil. Təbii ki, "süd pulunun" arxaik semantikası vardır. Belə ki, əski toy mərasimlərində süd pulu, başlıq və s. pulu kimi ödənişlər rituallaşdırılmış davranışın vahidləri olub, etnosdaxili ünsiyyətin xüsusi işarəvi səviyyəsini nəzərdə tutur) və öz xeyir-duasını verərdi.

Bütün bu mərasimlər sona yetdikdən sonra bəyin qardaşı (əgər qardaşı yoxdursa, bəyin yaxın qohumu) gəlinin belinə qırmızı lent bağlayardı ("Belbağlama" çox qədim bir ayindir. Əbəs yerə deyil ki, indinin özündə belə bir adama müəyyən işlə əlaqədar arxayın olmayanda, inanmayanda "belim ona bağlı deyil" ifadəsini işlədirlər. Bu mə'nada, "belbağlama" təkcə ərin arvadla bağlanmasını, onların arasındakı sədaqətin, vəfanın, birliyin təsbit edilməsini ifadə etmir. "Dədə Qorqud kitabı"nda ağ rəng oğlanı, qırmızı rəng qızı, qara rəng isə övladsızlığı simvollaşdırır. Buradan "belbağlama" adətində qırmızı rəngin övlad, nəsil, artım anlamı da görünür. Qırmızı lentin gəlinin məhz belinə bağlanması təsadüfi deyil. Əski mədəniyyətdə insan bədəni semantik baxımdan dəyərləndirilirdi. Qadının beli, ona bağlanan qırmızı lent mədəniyyətin işarəvi təhlilində övlad, artım kimi anlamları ortaya qoyur). Lenti 3 dəfə gəlinin başından atıb, ayağından keçirərək:

Anam, bacım, qız gəlin,
Əl, ayağı düz gəlin.
Yeddi oğul isdərəm,
Bircə dənə qız gəlin.

– deyər və gəlinin belini bağlayardılar (Qadının üç dəfə qırmızı lentin içərisindən keçirilməsi birbaşa doğumu simvolizə edir. O, lentin içindən keçməklə öz ata-anasının övladı statusunu itirib, yeni ailənin üzvü olaraq doğulur. Bunun doğumu simvollaşdırması həm də ondan

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görünür ki, uşağı olmayan qadın da övladlığa götürdüyü körpəni üç dəfə köynəyinin arasından keçirir). Atanın xeyir-duasını almamış qız gəlin köçməzdi. Qız atası öz xeyir-duasını verdikdən sonra "vağzalı" çalınardı. Bəy gəlinin əlindən tutaraq (Əlindən tutmaq – rəmzi mə'na daşıyır. Yə'ni əl-ələ tutub dağı-dağ üstə qoyacaq, bütün çətinliklərə birlikdə sinə gərəcəyik) müqəddəs kitabımız Qur'anın altından keçərdilər. "Vağzalı"nın yanıqlı sədası altında gəlin ata-baba yurdundan ayrılardı. Onların ardınca su atardılar. "Su aydınlıqdır" deyərdilər. Uzaq səfərə çıxanların, çətin iş arxasınca gedənlərin, gəlin köçənlərin arxasınca su atardılar ki, getdikləri yerdə uğurları olsun.

Gəlin təzə evə gəldikdə ayağının altında qurban kəsərdilər. Qurban kəsilmiş qoyunun qanından alnına və ayağına vurardılar. Təzə evinin qapısında gəlinin ayağının altına üzüstdə bir boşqab qoyardılar. Gəlin onu ayağıyla sındırardı. Bunun mə'nası gəlinin ayağı sayalı, qədəmləri nurlu, bərəkətli olmasıdır.

Gəlini gətirdikdən sonra gəlin otağında oturdardılar. Gəlin otağa girən kimi oturmaz. Bəyin atası və ya anası gəlinə xələt verdikdən sonra gəlin ona göstərilən yerdə oturardı. Mağarda isə kişi məclisi qurulardı. Bu məclisi toybaşı deyilən şəxs idarə edərdi. Toybaşı bəyə tə'rif deyərdi:

Qismətiniz olsun güllər butası,
Sən olasan doqquz oğul atası.
Gəlsin xələt versin bəyin atası.
Görüm, ay bəy, toyun mübarək olsun,
Gələnin, gedənin, elin var olsun.

Əlvan əlində bəyin xınası,
Bu toyun ellərə düşüb sədası.
Gəlsin xələt versin bəyin anası.
Görüm, ay bəy, toyun mübarək olsun,
Gələnin, gedənin, elin var olsun.

Həccə gedir hacıların hacısı,
Yaman olur şirin dilin acısı.
Gəlsin xələt versin bəyin bacısı.
Görüm, ay bəy, toyun mübarək olsun,
Gələnin, gedənin, elin var olsun.

Dəryada qərq olub Nuhun gəmisi,
Dəryada qərq olub cümlə cəmisi.
Gəlsin xələt versin bəyin əmisi.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görüm, ay bəy, toyun mübarək olsun,
Gələnin, gedənin, elin var olsun.

Qızılgülü dəstə tutub dərərəm,
Həvəslənib dost bağına sərərəm.
Bəyin dostdarından xələt isdərəm.
Görüm, ay bəy, toyun mübarək olsun,
Gələnin, gedənin, elin var olsun.

Bəy bu tə'riflərdən sonra rəqs etmək üçün mağara gələrdi. "Bəy öz toyunda oynayarsa, bolluq olar" deyərlər. "Bəy havası" çalınar və bəy oynayardı. Bu çal-çağır gecə yarısınadək davam edərdi. Cəbrayılın xoş günlərində toy mərasimi 3 gün, 3 gecə davam edərdi.

Bütün bu qələmə aldıqlarım Cəbrayıl rayonunun toylu-büsatlı günlərində, düz 14 il əvəl görüb, eşitdiyim toylardandır. Amma, təbii ki, Cəbrayılın toyla bağlı adət-ən'ənəsi yalnız bunlardan ibarət deyil. Cəbrayılın 90-a yaxın kəndi var və hər kənddə adətlərin özünəməxsus çalarları var. Məsələn, Sirikdə gəlin ata evindən çıxanda başına şirniyyat (konfet) tökərdilər. Gəlin qırmızı güllü-güllü paltar geyinər, başına isə qırmızı yaylıq atardı (gəlinlik paltarı və duvaq bundan ibarət idi). Gəlini 40 gün gərdəkdə saxlayardılar. Horovluda isə çıraq yandırar, evin ortasına qoyardılar. Qızın atası (əgər atası yoxdursa, bu işi əmisi icra edir) əlindən tutub 3 dəfə çırağın başına fırladar və sonra xeyir-duasını verərdi. Sonra bu çıraq gəlinlə birlikdə bəy evinə göndərilərdi. Dağ Tumasda toydan bir gün əvvəl oğlan evinin gətirdiyi paltarları nümayiş etdirərdilər (rayonda bu "paltar biçdi" günü icra olunardı). Bu "qırım" adlanardı və hər adama hədiyyə verilirdi. Qırıma gələnlər xələt salardılar (yə'ni gəlinlə bəyə ya hədiyyə, ya da pul verərdilər). İsaxlıda isə gəlin qırmızı geyinər (Gəlinlik paltarının qırmızı rəngində, bizcə, oğuzların dünya haqqında təsəvvürləri işarələnmişdir. Təsadüfi deyildir ki, DQK-nin I boyunda qırmızı (qızılı) rəng məhz qız övladının işarəsi kimi yaradılmışdır. Ağ geyim bizə Avropadan gəlib və çox təəssüf ki, özümüzünküləşib. Həm də qırmızı əski inanclara görə, göz qaytarır. Buna görə də bütün əşyalar toy günü qırmızı lentlə bağlanır) və üzünü örtərdi. Burada gəlinin üzü görünməzdi.

Hələ qədim zamanlarda – Qarabağ atlarının bütün dünyada məşhur olduğu vaxtlarda gəlini atla aparar, atın yedəyini isə bəyin yaxınlarından kimsə tutardı. Sonra bütün cavanlar yığışar, at yarışı keçirərdilər.

Bugünkü toylarımızda bu adətlərin çox az bir hissəsi qorunub saxlanılmaqdadır. Bu adət-ən'ənələr artıq Cəbrayıldan olan məcburi köçkünlərin məskunlaşdığı ərazinin adət-ən'ənələrinə qarışıb. Toy adətlərimizə bir az niskil, bir az kədər, bir az da vətən həsrəti qoşulub. İndi

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cəbrayıllıların toyunda toy başlanan kimi “Qarabağ şikəstəsi” fəryad qoparır. Elə bir cəbrayıllı toyu yoxdur ki, orada əzəmətli Çinardan, Qurban Təpəsindən, Hacı Qaramandan, əfsanəvi Xudafərin körpüsündən söhbət açılmasın, əsir düşmüş Cəbrayıl xatırlanmasın. Göründüyü kimi, erməni təcavüzü bizi təkcə torpaqlarımızdan yox, minilliklər boyu həyatımızda yaşayan etnoqrafik dəyərlərimizdən də məhrum etməyə başlayıb. Bu mə'nada, toylarımız özünün bə'zi arxaik cizgilərini itirsə də, qürurla qeyd etmək istəyirəm ki, toylarımızın müqəddəsliyi, elin birliyinin, bütövlüyünün rəmzi hələ də yaşamaqdadır. Bu, bizim gələcəyimizdən, azad edəcəyimiz vətən torpağında quracağımız qələbə toyundan soraq verir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com